# YUBİLYARLARIMIZ

## NİZAMİ XƏLİLOV – 60

10 fevral 2009-cu ildə filologiya elmləri namizədi, dosent Nizami Qasım oğlu Xəlilovun 60 yaşı tamam olur. Azərbaycan folklorşünaslarının orta nəslinə mənsub olan N.Xəlilov elmdə öz yoluna, üslubuna, dəsti-xəttinə malik olan bir alimdir. Araşdırmalarında bədii ədəbiyyatın yazılı və şifahi qolları arasındakı qarşılıqlı əlaqə və təsirin tədqiqi üstünlük təşkil edir. Uzun müddət görkəmli yazıçımız Əbdürrəhim bəy Haqverdiyevin bədii nəsrində və dramaturgiyasında folklor motiv və obrazlarını öyrənməklə məşğul olan N.Xəlilovun namizədlik dissertasiyası da bu mövzuya həsr olunmuşdur. Alim bu yöndəki araşdırmalarının yekunu olaraq «Xalq təfəkkürü, sənətkar qüdrəti» monoqrafiyasını (Bakı, «Elm», 1996) çap etdirmişdir. N.Xəlilov bundan sonra da öz istiqamətinə sadiq qalaraq klassik poeziyamızda özünü göstərən folklor ənənələrini, xalq şeiri şəkillərini izləmiş, aşıq yaradıcılığı ilə müqayisələr apararaq «Aşıq sənətinin təşəkkülü» (Bakı, BDU nəşri, 2003) adlı dərs vəsaitini nəşr etdirmişdir.

Bütün sahələrdə olduğu kimi, folklorşünaslıqda da elə fikirlər vardır ki, onlar hamı tərəfindən elmi həqiqət olaraq qəbul edilmiş, bir doqma şəklində sabitləşmiş, kitabdan-kitaba, məqalədən-məqaləyə keçərək yayılmışdır. Belə fikirlər nüfuzlu, tanınmış alimlər tərəfindən irəli sürülmüşsə, onları şübhə altına almaq daha çətin olur. Lakin elm daim inkişaf edir, yeni faktlar üzə çıxır. Bu zaman əvvəlki stereotipi qırmaq tədqiqatçıdan cəsarət tələb edir. «Aşıq sənətinin təşəkkülü» kitabının müəllifi Nizami Xəlilov məhz belə bir cəsarət nümayiş etdirmişdir.

Bildiyimiz kimi, aşıq sənətinin tarixini XVI əsrdən başlayırlar və həmin dövrdə yaşamış Qurbani adı və yaradıcılığı bu günümüzə gəlib çatmış ilk aşıq kimi təqdim edilir.

Nizami müəllim kitabında aşıq sənətinin tarixini 3 əsr əvvələ, yəni XIII əsrə çəkir. Təqdirəlayiq haldır ki, bu addım sadəcə milli təəssüb hissinin, yaradıcılığının tarixini qədimləşdirmək istəyinin diktəsi ilə atılmamışdır. Belə bir elmi fikri müəllif birbaşa və dolayı yolla sübut etmiş, tutarlı dəlillərə və faktlara əsaslanmışdır. N.Xəlilov fikirlərini təsdiq üçün daha çox XII-XIII-XIV əsrlərin yazılı ədəbiyyat nümayəndələrinin əsərlərinə müraciət edir.

Nizami müəllim hələlik, aşıq ədəbiyyatını XIII əsrin sənətkarı Şirvanlı Molla Qasımdan başlayır. Ona görə «hələlik» sözünü vurğulayır ki, Molla Qasımın sələfləri yəqin ki, olmuşdur, sadəcə onların adları və irsi bizə gəlib çatmamışdır. Folklorşünaslıqda Molla Qasım haqqında ilk söz deyən və onun şeirlərini tapıb üzə çıxaran Salman Mümtaz olmuşdur. Bir çox «ilk»lərə imza atmış bu fədakar toplayıcı və tədqiqatçı 1929-cu ildə yazdığı məqaləsində XIII əsrdə yaşamış Yunis İmrənin bir beytinə əsaslanaraq Molla Qasımı onun və Həsənoğlunun müasiri hesab edir.

N.Xəlilov bir çox tədqiqatçıların, sonralar S.Mümtazın fərziyyəsindən uzaqlaşaraq Molla Qasımı XVIII əsrin aşığı Xəstə Qasımla eyniləşdirdiklərini təəssüflə qeyd etmişdir. Özü isə əksinə, bu fikrə qol-qanad vermək, onu inkişaf etdirmək, danılmaz dəlillərlə möhkəmləndirmək üçün əlindən gələni etmişdir. O, Molla Qasımın gəraylısı ilə Yunis İmrənin ona yaşadığı nəzirəni müqayisə edərək oxşarlığı üzə çıxarmış və Salman Mümtazla tam razılaşmışdır. N.Xəlilov XIII əsrdə Mola Qasım kimi bir sənətkarın yaradıcılığını sübut etmək üçün tutarlı faktlar gətirmişdir. O, həmin dövrdə Azərbaycan ərazisindəki ictimai-siyasi vəziyyəti təhlil edərək monqol istilası ilə əlaqədar, fars dilinin sıxışdırılmasını və türk dilinin ön plana keçməsini göstərmiş, dil faktorunu vacib amillərdən biri hesab etmişdir. İkinci arqument əslində birinci faktla şərtlənir və XIII-XV əsrlərdə Həsənoğlu, Qazi Bürhanəddin, Nəsimi, Şah Qasım Ənvar kimi ana dilində yazıb yaratmış şairlərin, «Dastani-Əhməd Hərami» kimi bir əsərin mövcudluğudur. Aydındır ki, XIII əsrdən başlayaraq anadilli ədəbiyyatımız get-gedə güclədiyi halda, aşıq yaradıcılığının inkişaf etməməsi inandırıcı deyildir. Həmçinin o dövrün yazılı ədəbiyyat nümayəndələrinin yaradıcılığında bir qədər qüsurlu da olsa, xalq şeiri üslubunu, qoşma, gəraylı janrlarını xatırladan nümunələrin olması bu ehtimalı bir qədər də gücləndirir. Hələ XI əsr abidəsi «Divani-lüğətit türk»də heca vəznli şeir parçalarının olması,

Nizaminin öz əsərlərində müxtəlif məqamlarda «saz» alətinin adını çəkməsi və s. arqumentləri bir qədər də artırır.

N.Xəlilovun «Aşıq sənətinin təşəkkülü» kitabı folklorşünaslığımızda yeni söz, yeni nəfəsdir. Bu əsər gələcək tədqiqatlar üçün bir çıxış nöqtəsi olacaq, bu sahədəki araşdırmaların istiqamətinə təsir göstərəcək.

N.Xəlilov uzun illərdir ki, Bakı Dövlət Universitetində müəllim kimi fəaliyyət göstərir, folklorumuzu tədris edir. O, magistratura təhsil pilləsi üçün bir neçə proqramın müəllifidir. N.Xəlilov həm də filologiya fakültəsinin qiyabi və magistratura şöbələri üzrə dekan müavini vəzifəsində çalışır. Nizami müəllimi yubileyi münasibətilə təbrik edir, ona cansağlığı, tükənməz enerji, çoxcəhətli fəaliyyətində yeni-yeni nailiyyətlər diləyirik.